*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 oktyabr 2020-ci il № 71 (2489) Qiymət 30 qəpik

## Prezident İlham Əliyev:

## Münaqişənin coğrafiyasını genişləndirmək istəyən Ermənistan çox yanlış yoldadır

*Əgər Türkiyə açıq mövqe göstərməsəydi, bu gün başqa qüvvələr bu işlərə qarışa bilərdi.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev bunu Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib.

"Onsuz da Ermənistanın məqsədi bundan ibarətdir, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək istəyirlər və çox yanlış yoldadırlar. Çünki görürlər ki, bizim qarşımızda təkbaşına duruş gətirə bilmirlər. Döyüş meydanında biz onları məğlub edirik. Hər gün cəbhədən çox gözəl xəbərlər gəlir. Bu gün səhər mən yeni kəndlərin azad edilməsi haqqında məlumat vermişəm. Azərbaycan Ordusu zəfər marşındadır və qarşımızda duran bütün vəzifələr yerinə yetirilir", - deyə dövlətimizin başçısı vurğulayıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva:

## Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm

Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə, milyonlarla azərbaycanlının arzularını həyata keçirir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın oktyabrın 18-də rəsmi "İnstagram" hesabında edilən paylaşımda deyilir:

"Azərbaycan Ordusunun növbəti qələbəsi! Füzuli şəhəri və Füzuli rayonunun bir sıra kəndləri işğaldan azad edilib. İllər boyu bir çox soydaşımız Vətən həsrəti ilə yaşayıb! Nə qədər həmvətənimiz doğma diyarını heç olmasa bir dəfə də olsun yenidən görmək arzusunda idi! Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. Bu, ədalətin təntənəsidir! Ona görə ki, bu yerlər bizim doğma torpaqlarımızdır, əcdadlarımızın torpaqlarıdır. Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm. Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

*Vətən müharibəsindən reportaj*

# Döyüş bayrağı - Qalibiyyət bayrağı



*Neçə gündü dan yeri müharibə ovqatıyla sökülür, neçə gündü səhərlərimiz müharibə ovqatıyla açılır. Neçə gündü məmləkətimizdə vətənsevərlər qələbələri könül mülkünə şükranlıq, yaşantılarına səyyarə bilir. Oğlu məktəbli olan ana "Oğullarım döyüşlərdədi!", - deyir, şəhid anaları "Oğlumun qardaşları döyüşür", - deyir, şəhid balaları "Atamın yolunu davam etdirənlər torpaqlarımızı işğaldan azad edəcək!", - deyir...*

Vətən müharibəsidi...
Döyüşlər gedir...
Suqovuşan azad edildi...
Cəbrayıl azad edildi...
Füzuli azad edildi...

Bayrağımızı Xudafərində dalğalandıranlarımız növbəti döyüşlərə, növbəti qələbələrə xudamızın uğurlamasıyla gedir. Ona görə ruhumuz bunca əmindi, ona görə inamımızın, güvəncimizin üstündə yellər əsmir, əsməyəcək də...

**(Ardı 7-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib

*Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.*

*AZƏRTAC müraciəti təqdim edir.*



- Əziz həmvətənlər, müzəffər Azərbaycan Ordusu döyüş meydanında yeni qələbələr qazanır. Bu qələbələr hər bir Azərbaycan vətəndaşını sevindirir. Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq.

Xalqımız döyüş meydanından, cəbhə bölgəsindən səbirsizliklə yeni xəbərlər gözləyir. Mən çox şadam və mən xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram. Hər bir kəndin, hər bir şəhərin, hər bir strateji yüksəkliyin işğalçılardan azad edilməsi böyük peşəkarlıq, cəsarət, rəşadət, qəhrəmanlıq tələb edir. Bizim hərbçilərimiz şəhid olurlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimiz həmişə bizim qəlbimizdə yaşayacaq. Bizim hərbçilərimiz döyüş meydanında yaralanırlar. Allah bütün yaralı hərbçilərimizə şəfa versin! Eyni zamanda, mənfur düşmən bizim yaşayış məntəqələrimizi daim atəşə tutur, hər gün cəbhəboyu şəhərlərimiz, kəndlərimiz mənfur düşmənin atəşinə məruz qalır. Bu namərd atəşə ən çox məruz qalan Tərtər rayonudur, eyni zamanda, Ağdam, Goranboy, Ağcabədi, Bərdə, digər şəhər və rayonlarımız düşmən tərəfindən atəşə tutulur. Gəncə şəhərinə namərd zərbələr nəticəsində dinc əhali həlak olur - uşaqlar, qadınlar, qocalar. Düşmən üçün bunun fərqi yoxdur. Belə bir fərq onlar üçün mövcud deyil. Onlar döyüş meydanında məğlubiyyətə uğrayır, Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilmir və bizi durdurmaq üçün, bizə zərbə vurmaq üçün bütün dünyanın gözü önündə mülki əhaliyə qarşı cinayət törədir. Bütün dünya görür ki, Azərbaycan hansı mənfur, vəhşi düşməndən öz doğma torpaqlarını azad edir. Otuz il ərzində bizim torpaqlarımızda oturub bizə meydan oxumağa çalışırdı. Otuz il ərzində bizim torpaqlarımızı istismar edirdi, bizim təbii resurslarımızı istismar edirdi, oğurluq, talançılıq onların xislətidir. Dağıdılmış kəndlərin, şəhərlərin vəziyyətinə baxmaq kifayətdir, hər kəs görsün ki, bizim qarşımızda hansı vəhşilər dayanıb. İşğal olunmuş və artıq azad edilmiş torpaqlarda bir dənə də salamat bina qalmayıb. Bütün binalar sökülüb, talan edilib, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz dağıdılıb, talan edilib, təhqir edilib. Onlar hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Onlar hesab edirdilər ki, bu torpaqları əbədi işğal altında saxlayacaqlar. Onlar bizim şəhərlərimizin adlarını dəyişdiriblər, rayonlarımızın sərhədlərini dəyişdiriblər, kəndlərimizin adlarını dəyişdiriblər, bizim torpaqlarımızı erməniləşdirmək istəyiblər, amma buna nail ola bilmədilər, Azərbaycan xalqının iradəsini qıra bilmədilər.

Öz doğma dədə-baba torpaqlarını görməyən, işğaldan sonra dünyaya göz açan hər bir azərbaycanlı bir arzu ilə yaşayıb ki, doğma dədə-baba torpaqlarına qayıtsın. Biz bunu Cocuq Mərcanlının timsalında gördük. İşğaldan sonra doğulmuş gənclər, onların hər biri Cocuq Mərcanlıya qayıtmaq arzusu ilə yaşayıb və qayıdıbdır. Əminəm ki, bu gün işğalçılardan azad edilmiş bütün torpaqlara Azərbaycan vətəndaşları qayıdacaqlar. O torpaqlarda yaşayacaqlar, sülh, əmin-amanlıq şəraitində yenə də qurub-yaradacaqlar. Necə ki, vaxtilə bizim işğal edilmiş bütün torpaqlarımızda Azərbaycan xalqının mədəni irsi yaradılıbdır. Amma mənfur düşmən bu irsi məhv etmək istəyirdi, bizim məscidlərimizi dağıdırdı. Biz Çocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzərini inşa edəndə və onun açılışında demişdim ki, məscidlərin binalarını onlar dağıda bilərlər, amma bu məscidləri biz öz qəlbimizdə yaşadırıq və gün gələcək bizim dağıdılmış bütün məscidlərimiz bərpa ediləcəkdir, bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləcəkdir. Biz Böyük Qayıdış astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, Azərbaycan vətəndaşları işğal olunmuş və azad edilmiş torpaqlara qayıdaraq rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar və bu torpaqlarda həyat canlanacaqdır.

Bizim məcburi köçkünlərimiz bütün bu illər ərzində bir arzu ilə yaşayıblar, baxmayaraq ki, onların bir çoxları üçün gözəl şərait yaradılıb və bildiyiniz kimi, təkcə bu il biz məcburi köçkünlər üçün 7 min mənzilin istifadəyə verilməsini nəzərdə tuturuq. 300 mindən çox məcburi köçkünə evlər, mənzillər verilibdir. Onlar bu qayğıya görə bizə minnətdarlıq edirlər və mənim onlarla çoxsaylı görüşlərimdə bunu ifadə edirdilər. Ancaq, eyni zamanda, mən bilirdim və onlar mənə deyirdilər ki, bizi qaytarın, öz torpağımıza qaytarın. Başa düşürdülər ki, bu, çətin məsələdir, başa düşürdülər ki, bunun üçün müəyyən geosiyasi şərait yetişməlidir. Mənə inanırdılar və mən onlara deyirdim ki, biz o torpaqlara qayıdacağıq, mən deyirdim ki, bilirəm, nəyi nə vaxt və necə etmək lazımdır. Xalq tərəfindən mənə göstərilən etimad imkan verdi ki, biz bu məsələni həll edək. Mən bir daha bəyan edirəm ki, verilmiş bütün vədləri mən yerinə yetirirəm, verilmiş bütün vədlərə sadiqəm. Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik.

30 ilə yaxın aparılan danışıqlar heç bir nəticə vermədi. İşğal edilmiş torpaqlarda Ermənistan tərəfindən qurulmuş istehkamlar onu göstərir ki, onlar bu torpaqları bizə vermək fikrində deyildilər. Sadəcə olaraq, bizi və beynəlxalq vasitəçiləri aldadırdılar. Sadəcə olaraq, vaxtı uzadırdılar və bununla bərabər işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparırdılar, Laçın şəhərində minlərlə insanı yerləşdiriblər, Kəlbəcərdə minlərlə insanı yerləşdiriblər. Bu gün işğaldan azad edilmiş torpaqlarda da - Füzuli, Cəbrayıl və digər rayonlarımızda da onlar bizim kəndlərimizdə yaşayıblar. O kəndlərin böyük hissəsi dağıdılıb, ancaq bəzi evlərdə onlar bizim torpağımızda yaşayıblar. Azərbaycanlılara qarşı etnik təmizləmə aparmaq, azərbaycanlılara qarşı soyqırımı törətmək, bizim vətəndaşlarımızı doğma torpaqdan didərgin salmaq və ondan sonra "referendum" keçirmək tamamilə insani əxlaqa, qanuna, beynəlxalq hüquqa ziddir. Heç kim qondarma "Dağlıq Qarabağ respublikasını" tanımayıb. İndi onlar əlləşirlər, vurnuxurlar ki, dünya ölkələri qondarma kriminal qurumu tanısınlar. Ağıllarını itiriblər, başa düşmürlər ki, heç kim bunu etməyəcək, başa düşmürlər ki, bunu edən hər bir ölkə artıq Azərbaycan üçün dost ölkə sayıla bilməz. Nəinki dost ölkə, bu ölkə ilə biz bütün əlaqələri kəsəcəyik. Amma onlar ağılını itiriblər. Bu gün çalışırlar ki, status-kvonu bərpa etsinlər. Mən demişəm, status-kvo yoxdur. Status-kvonu biz məhv etmişik və düz də etmişik. 30 ilə yaxın gözləmişik. On il bundan əvvəl Minsk qrupunun həmsədrləri, onların prezidentləri səviyyəsində açıqlama verilmişdir ki, status-kvo qəbuledilməzdir. Biz də bunu dəstəklədik, biz bunu bəyəndik və bizdə böyük ümidlər yarandı, ondan sonra danışıqlar masasında əldə edilmiş müəyyən tərəqqi bizim ümidlərimizi artırdı. Amma sən demə, mənfur düşmən, sadəcə olaraq, bizi və beynəlxalq aləmi aldadırdı. Bu, beynəlxalq vasitəçilərə hörmətsizlikdir.

Biz döyüş meydanında güc göstərərək status-kvonu dəyişdirdik. Mən bunu bu toqquşmalardan əvvəl demişdim, bir neçə dəfə demişdim, bu gün əfsuslar olsun ki, beynəlxalq münasibətlərdə beynəlxalq hüquq işləmir. Əgər işləsəydi, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi çoxdan icra edilərdi. Biz iyirmi il gözləyirdik ki, bu qətnamələr icra edilsin. Onlar, sadəcə olaraq, kağızda qaldı. Nə üçün? Çünki siyasi iradə göstərilmədi, bu qətnamələrin icra mexanizmi müəyyən edilmədi. Mənfur düşmən hesab etdi ki, o, bundan sonra da buna məhəl qoymaya bilər. Bundan sonra da beynəlxalq hüququ əzə bilər. Bundan sonra da bizim torpaqlarımızda istənilən çirkin əməllər törədə bilər. Biz onları məcbur etdik. Bax, bizim yumruğumuz, sadəcə olaraq, düşmənin başını yaran yumruq deyil. Bizim yumruğumuz bizim birliyimizdir, xalqımızın birliyidir, məqsədyönlü fəaliyyətdir, beynəlxalq müstəvidə bizə sərf edən və ədaləti əks etdirən qərarların, qətnamələrin qəbul edilməsidir.

Mən görürdüm, bəzi hallarda bu hadisələrə qədər Azərbaycan vətəndaşları, o cümlədən köçkünlər hesab edirdilər ki, belə diplomatik uğurlar, əlbəttə, önəmlidir, ancaq onlar məsələnin həllini təmin etmir. Mən isə həmişə onlara izah edirdim ki, bu, beynəlxalq qanun çərçivəsində həll olunası bir məsələdir. Buna görə biz bütün aparıcı beynəlxalq təşkilatlarla işləməliyik ki, bu münaqişənin həlli üçün hüquqi bazanı genişləndirək. BMT Təhlükəsizlik Şurasının qətnamələri işləmirdi. Biz böyük səylər göstərdik, BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar qətnamə qəbul etdi. Avropa İttifaqı ilə bizim aramızda paraflanmış sənəddə də sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərilir. Yəni, budur bu münaqişənin həlli üçün əsas. Ona görə bu gün artıq özünü lap dilənçi kimi, lap düşük kimi, - bağışlayın, ifadəmə görə, amma onlar hər bir ifadəyə layiqdirlər, - aparan Ermənistan rəhbərliyi gecə-gündüz bütün beynəlxalq təşkilatlara zəng edir, məktublar göndərir, bəyanatlar verir ki, niyə, səsinizi çıxarmırsınız? Onlar necə səsini çıxara bilərlər? Onlar artıq bu qətnamələri, bu qərarları qəbul ediblər və Azərbaycan döyüş əməliyyatını beynəlxalq birlik tərəfindən tanınan öz ərazisində keçirir. Biz Ermənistan ərazisində hər hansı bir əməliyyat keçirmirik, - bizim belə planlarımız yoxdur, - baxmayaraq ki, onlar Gəncəni Ermənistan ərazisindən iki dəfə bombalamışdılar. Biz cavab vermədik onların yolu ilə. Biz döyüş meydanında cavab verdik. Mən bildirmişdim ki, biz onların intiqamını döyüş meydanında alacağıq və alırıq. Biz şəhidlərimizin qanını yerdə qoymayacağıq və qoymuruq. Bax, beynəlxalq təşkilatlarda bizim fəaliyyətimizin əsas məqsədi o idi ki, bu hüquqi baza təkmil olsun, genişlənsin və biz buna nail ola bildik.

Ona görə, bu gün Ermənistan rəhbərliyi yaxşı fikirləşməlidir. Artıq bizim qarşımızda diz çöküb, onlara diz çökdürmüşük, onlara layiq olan yeri göstərmişik. Qovuruq onları bizim torpaqlarımızdan, bundan sonra da qovacağıq! Hər gün xoş xəbərlər gəlir. Hər gün bayrağımız yeni bir yaşayış məntəqəsində ucaldılır. Budur, Azərbaycan dövlətinin, Azərbaycan xalqının gücü. Otuz il ərzində Ermənistan rəhbərliyi "güclü ordusu" haqqında uydurmalar ortalığa atırdı, "yenilməz Ermənistan ordusu" barədə miflər yaradırdı. Haradadır bu "yenilməz Ermənistan ordusu?". Görün, necə qaçır bizim qabağımızdan. Bu, mif idi, bu, yalan idi. Bunu biz yerə vurduq. Otuz il bizi təhqir edirdi. Otuz il idi ki, işğal edilmiş torpaqlarda abidələrimizi dağıdırdı, tarixi-mədəni irsimizi silmək istəyirdi. Otuz il ərzində beynəlxalq aləm nə üçün sanksiya tətbiq etmədi təcavüzkar dövlətə qarşı? Mən dəfələrlə demişəm ki, sanksiyalar tətbiq edilməlidir. Bu ölkə, bu ölkənin rəhbərliyi öz xoşu ilə bu torpaqlardan çıxmaq istəmir. O, bizi aldadır, danışıqları imitasiya üçün aparır. Onlara inam yoxdur və mən haqlı çıxdım. İndi baxın, orada qurulmuş istehkamlara. Belə istehkam quran ölkə, bu qədər oraya vəsait xərcləyən ölkə oradan çıxarmı? Çıxmaq istəsəydilər, bunu etməzdilər. Yəni, onların hər bir sözü yalandır. Bu gün də onların dövlətinin rəhbərləri gecə-gündüz yalan, uydurma yayırlar Azərbaycan haqqında, döyüş meydanında baş verən hadisələr haqqında. Sanki kimsə gəlib bizim əvəzimizə vuruşur.

**(Ardı 3-cü səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib

(Əvvəli 2-ci səhifədə)

Azərbaycan xalqı, Azərbaycan gəncləri, Azərbaycan əsgəri onlara dərs verir. Təkbaşına vuruşuruq, hər kəs bunu bilir. Amma özlərinə sığışdıra bilmirlər, çünki miflər dağılır, miflər onların ideologiyasının əsasdır. Tarix haqqında yalan. Əfsuslar olsun ki, onu da indi bir çox ölkələrə qəbul etdirə biliblər, tarixi yalanı. Xocalı haqqında yalan, guya ki, Azərbaycan özü Xocalı soyqırımını törədib. Gəncənin bombalanması haqqında onların rəsmi nümayəndələri yalan bəyanat veriblər ki, Ermənistan bu raket atəşini təşkil etməyib. Nə vicdan var, nə əxlaq var, nə mənəviyyat var. Ağıl da yoxdur. Ağıl olsaydı deyərdilər ki, baxın, bu ballistik raketin start nöqtəsi və atış istiqaməti dünyada aparıcı ölkələr tərəfindən izlənilir, haradan atılıb, hara dəyib. Ballistik raketlərə döyüş tapşırığı verilir. O təsadüfən o yaşayış massivinə düşməmişdir. Gecə vaxtı, qəsdən. Amma ağıllarını itiriblər, guya, dünyanı aldatmağa davam edirlər ki, bəs kim atıb Gəncəyə bu raketi? Biz özümüzə atmışıq? Necə ki, yalan danışırdılar, Azərbaycan özü Xocalı soyqırımını törədib, indi də yalan danışırlar. Bütün dünyaya yalan danışır, bütün müsahibələrdə yalan danışır. Bu yalançıları biz bundan sonra da qovacağıq. Onlar gördülər ki, kim kimdir. Gördülər ki, biz onlara elə dərs veririk ki, bu dərsi heç vaxt unutmayacaqlar. İndi isə imdad diləyirlər. Ona-buna zəng edirlər, kömək edin, kömək edin! Bəs, hanı sənin "müzəffər ordun", hanı sənin "yenilməz ordun?!". Bizim üçün müqəddəs olan Cıdır düzündə Ermənistanın baş naziri sərxoş vəziyyətdə rəqs edirdi. Fikirləşməli idi ki, bu təhqir Azərbaycan xalqına necə təsir edə bilər? Amma hesab edirdi ki, heç kim onlara toxunmayacaq. Hesab edirdi ki, bütün ölkələr onları bundan sonra da müdafiə edəcək, dünya erməniliyi, erməni lobbiləri, ondan sonra onların bəzi dost ölkələri. Ona görə azğınlaşmışlar, ona görə qudurmuşlar. Onlara yerlərini göstərdik, onların başından elə zərbə vurduq ki, çətin ayılsınlar. Onların ordusunu, texnikasını demək olar ki, məhv etmişik. Qaçırlar, hələ qaçacaqlar.

Bir sözlə, döyüş meydanında bizim üstünlüyümüz artıq heç kimə sirr deyil. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, şəhidlər veririk, öz ərazi bütövlüyümüzü bərpa edirik. Bundan sonra da bu addımlar atılacaq. Ermənistan hələ nə qədər gec deyil, bəyanat verməlidir ki, işğal edilmiş torpaqlardan çıxıram. Ondan sonra döyüşlər dayana bilər.

Mən hər dəfə xalqıma müraciət edərkən xoş xəbərlər çatdırıram. Eyni zamanda, demək olar ki, hər gün öz "Twitter" hesabımda, "Twitter" vasitəsilə işğaldan azad edilmiş yeni kəndlərin, şəhərlərin adlarını çəkirəm. Mən bilirəm ki, Azərbaycan xalqı bu xəbərləri hər gün gözləyir, hər gün! Hər gün, hər saat ki, nə vaxt bu xəbər olacaq, nə vaxt bu xəbər çıxacaq? Amma istəyirəm, əziz xalqım bilsin ki, hər kəndin, hər yüksəkliyin götürülməsi böyük rəşadət tələb edir. Çünki təkcə orada qurulmuş istehkamlar deyil, eyni zamanda, azad edilmiş torpaqların hərbi relyefi də ermənilər üçün daha sərfəlidir. Çünki biz indi həm onların istehkamlarına, onların toplarına, onların raketlərinə qarşı, eyni zamanda, təbii relyefə qarşı vuruşmalıyıq və torpaqlarımızı işğalçılardan qarış-qarış azad edirik. Çox çətin məsələdir.

Gün gələcək, bu haqda geniş məlumat veriləcəkdir. Əminəm, Azərbaycan xalqı yaxşı başa düşür ki, bu gün nəyi demək mümkündürsə, onu deyirik. Çünki döyüşlər gedir və biz istəyirik ki, tezliklə bu döyüşlər başa çatsın, tezliklə ərazi bütövlüyümüz bərpa edilsin. Ona görə hesab edirəm ki, Azərbaycan ictimaiyyətinə verilən məlumat və məlumatın həcmi tam kifayətdir.

Bu gün ənənəyə, gözəl ənənəyə sadiq qalaraq Azərbaycan xalqına yeni bilgilər vermək istərdim. Düşmənin məhv edilmiş və hərbi qənimət kimi götürülmüş texnikaları ilə bağlı məlumatı əziz xalqıma çatdırıram.

Beləliklə, düşmənin 241 tankı məhv edilib, 39 tank hərbi qənimət kimi götürülüb - toplam 280 tank. Amma yenə də hələ ki, tanklar var, həm işğal edilmiş torpaqlarda, həm Ermənistan ərazisində. Haradandır onlarda bu qədər tank? Bir də ki, bu, bütün bu məsələni tənzimləyən beynəlxalq konvensiyalara ziddir. Bəs bu konvensiyalara monitorinq aparmalı olan qurumlar niyə buna fikir verməyiblər? Bax, biz deyirik 241 tank məhv edilib. Biz sonra onların nümayişini təşkil edəcəyik. 39 tank saz vəziyyətdə götürülüb və bu gün bizim əsgərlərimiz o tanklarda oturub düşmənə onların öz tankları ilə atəş açırlar.

Piyadaların 50 döyüş maşını məhv edilib, 24-ü qənimət kimi götürülüb və bu gün bizim əlimizdədir. Özüyeriyən 17 artilleriya qurğusu məhv edilib, 198 top məhv edilib. 58 minaatan məhv edilib, 12 minaatan qənimət kimi götürülüb. 25 qumbaraatan hərbi qənimət kimi götürülüb. 53 tank əleyhinə vasitə məhv edilib. 70 "Qrad" qurğusu məhv edilib. İki "Uraqan", iki "YARS" məhv edilib. Bir TOS məhv edilib. Dörd "S-300" zenit-raket kompleksi məhv edilib. Son dəfə mən bu məlumatı Azərbaycan ictimaiyyətinə çatdıranda iki "S-300" zenit-raket kompleksi məhv edilmişdi. Bu gün artıq dörd kompleks məhv edilib. Hər bir kompleksin, hər bir qurğunun qiyməti bəllidir, çox bahalı hərbi texnikadır. Üç TOR zenit-raket kompleksi məhv edilib. Qırxa yaxın OSA zenit-raket kompleksi məhv edilib. Beş KUB və KRUQ zenit-raket kompleksi məhv edilib. Altı pilotsuz uçuş aparatı, iki əməliyyat-taktiki raket kompleksi - "Elbrus", bir ballistik raket, bir "Toçka-U" raketi, səkkiz radioelektron mübarizə vasitəsi məhv edilib. 198 yük avtomobili məhv edilib. Onlardan 15-i sursatlarla dolu yük avtomobilləri idi. 102 yük avtomaşını hərbi qənimət kimi götürülüb. Biz düşmənin hərbi texnikasını bundan sonra da məhv edəcəyik. Olan-qalan da məhv ediləcəkdir.

İndi isə əziz xalqımın səbirsizliklə gözlədiyi bizim yaşayış məntəqələrinin azad edilməsi haqqında məlumatı böyük qürur hissi ilə çatdırıram.

Füzuli rayonu - azad edilmiş kəndlərin adları: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı.

Cəbrayıl rayonu - azad edilmiş kəndlər: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli.

Xocavənd rayonu - azad edilmiş yaşayış məntəqələrinin siyahısını çatdırıram: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng. Bu kəndə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Əziz xalqım, əziz zəngilanlılar, füzulilər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk. Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq!

Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!

# "Bu günlərdə xalqımıza yaşatdığınız hədsiz sevinc və qürur hisslərinə görə Sizə minnətdarıq"

*Azərbaycan Ordusunun cəbhədəki uğurlu əməliyyatları, torpaqlarımızın işğaldan azad edilməsi vətəndaşlarımız, eləcə də xaricdə yaşayan soydaşlarımız tərəfindən böyük sevinclə qarşılanır. Onlar sevinc hisslərini Prezident, Ali Baş Komandan İlham Əliyevə ünvanladıqları məktublarda bildirirlər.*

Norveçin Oslo şəhərində yaşayan Şervin Nəcəfpur və Atabəy Nəcəfpur yazırlar: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Norveçdəki "CAN" Azərbaycan diaspor təşkilatının və ailəmizin üzvləri adından Sizə dərin hörmətimizi və minnətdarlığımızı bildiririk. Sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti təcavüzü, Azərbaycan xalqının öz torpaqlarının azadlığı uğrunda Vətən müharibəsinə başlaması dünyada yaşayan azərbaycanlıları da ayağa qaldırmışdır. Bu gün dünya azərbaycanlıları Sizin ətrafınızda birləşərək daxili və xarici siyasətinizi dəstəkləyir. Sizin qətiyyətiniz sayəsində Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün Milli Ordumuz cəsarətlə mübarizə aparır. Bu gün rəşadətli Azərbaycan Ordusuna xalqımız hərtərəfli dəstək verir. Azərbaycan xalqının güc birliyindən qürur hissi duyuruq. Biz inanırıq ki, Sizin əzminiz sayəsində Azərbaycan Ordusu BMT-nin Təhlükəsizlik Şurasının Qarabağla bağlı qəbul etdiyi qətnamələrə necə hörmətlə yanaşmağın vacib olduğunu bütün dünyaya göstərəcək. Dövlətimizə, xalqımıza bu haqq işində, şərəfli mübarizədə zəfər arzulayır və daim bütün gücümüzlə başda Siz olmaqla Azərbaycan dövlətinin, ordusunun yanındayıq. Şəhidlərimizə Allahdan rəhmət diləyirik və yaralılarımıza Allahdan şəfa diləyirik. Tanrı xalqımıza bu müqəddəs işdə yardımçı olsun".

Bakı şəhər sakini Əlikram Qəniyev: "Hörmətli Prezidentim, mən Sizin apardığınız daxili və xarici siyasətlə həmişə fəxr etmişəm. Bu gün də mənfur düşmənlərə verdiyiniz dərs bu sətirləri yazmağıma səbəb oldu. Mən və tabeliyimdə olan "İnsan hüquqlarının müdafiəsi və ekologiyanın qorunması" İctimai Birliyinin Sabunçu rayon mərkəzinin kollektivi Sizi bu uğurlar və qələbə münasibətilə təbrik edirik. Sizə, xalqımıza, millətimizə Allahdan cansağlığı arzulayıram. Hər an Sizin əmrinizlə düşmənlə döyüşməyə hazırıq, cənab Ali Baş Komandan. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Qazax sakini Məmməd Omarov: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, şairlər, tarixi şəxsiyyətlər və hərbçilər Vətəni Qazax elinin ürəyində Sizin xüsusi yeriniz var. Siz Vaqifin, Əliağa Şıxlinskinin, Fərrux ağa Qayıbovun, Səməd Vurğunun ruhunu şad etdiniz. XXI əsrin birinci yarısında dünya prezidentləri sırasında Allahın say-seçmə bəndəsi kimi tarixə düşdünüz. Həsrətlə gözü yollarda qalan Qarabağ torpağını amansız, hiyləgər, faşist ermənilərin işğalından birdəfəlik azad etməyə yol tapdınız, müzəffər Ordumuzu qələbələrə ruhlandırdınız. Bu haqq yolunda Sizə və əsgərlərimizə yeni-yeni uğurlar arzulayıram. Allah Sizi və Ordumuzu qorusun!".

Ağdaş rayon sakini Taleh Yunusov: "Hörmətli cənab Prezident, Sizin uğurlu və uzaqgörən siyasətiniz nəticəsində bu gün Azərbaycan Ordusu sürətlə irəliləyir. Azərbaycan torpaqlarının azadlığa qovuşduğu bu günlər tarixə qızıl hərflərlə yazılır. Mən Sizinlə qürur duyuram, cənab Ali Baş Komandan. Dünyanın hər yerində Azərbaycanla bağlılığı olan hər bir kəs Sizinlə fəxr edir. Yaşasın Azərbaycan, yaşasın Prezidentimiz!".

Füzuli sakini Ceyhun Məmmədov: "Hörmətli cənab Prezident, faşist erməni dövlətinin qədim Gəncə şəhərinə növbəti hücumu bizi sarsıda bilməz. Bütün canımız, malımız, övladımız bu Vətənə qurban olsun. Əzəli torpağımız olan Qarabağın azad olunması üçün düzgün hərbi və siyasi mübarizənizi bundan sonra da həyata keçirəcəyinizə inanır və bu ədalətli mübarizədə Sizin arxanızda polad yumruq kimi dayandığımızı bildiririk. Tanrı Sizi və əsgərlərimizi qorusun! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Paytaxt sakini Roman Kazımov: "Hörmətli cənab Prezidentimiz, biz Sizi çox sevirik. Sizinlə fəxr edirəm. Bütün uşaqlar Sizi çox sevir. Mənim nənəm Qərbi Azərbaycandan qaçqındır. Siz düşmənləri "iti qovan kimi" qovduqca biz sevinirik. Qarabağı işğaldan azad edəcəyinizə hamımız inanırıq. Mən də böyüyəndə cəsur əsgər olacağam".

Astara rayon sakini Ağamirzə Əkbərov: "Möhtərəm cənab Prezident, bu günlərdə bizə yaşatdığınız hədsiz sevinc və qürur hisslərinə görə Sizə və şanlı Ordumuza minnətdarıq. Cənab Prezident, Azərbaycanda hamı Sizin ətrafınızda sıx birləşib. Bu gün milli həmrəylikdən kənarda qalanı nə xalq, nə də tarix bağışlamayacaq. Astaranın bütün sakinləri adından bir nəfər kimi Sizi dəstəklədiyimizi, əmrlərinizə hazır olduğumuzu bildirirəm".

Gəncə şəhər sakini Gülşən Məmmədzadə: "Möhtərəm cənab Prezident, Sizin qətiyyətiniz və şücaətiniz bizi həm fərəhləndirir, həm də qürurlandırır. Hər bir sadə azərbaycanlı qazandığınız bütün uğurlara sevinir, Sizinlə fəxr edir. Biz kəlbəcərlilər inanırıq ki, tez bir zamanda Kəlbəcərlə bağlı şad xəbər verəcəksiniz. Buna əminik və böyük ümidlə o dəqiqələri gözləyirik. Allahdan Sizə uzun ömür, cansağlığı arzu edirik. Şəhidlərimizə ulu tanrıdan rəhmət, yaralılarımıza şəfa diləyirik. Xalqımız Sizin uğurları gözləyir. Təşəkkür edirik. Qarabağ Azərbaycandır!".

**AZƏRTAC-ın materialları əsasında**

# Biz öz torpağımızda döyüşürük, vuruşuruq!

*Azərbaycan xalqı keşməkeşli, şərəfli bir tarix yaşayır. Bu tarixin hər səhifəsi onun qəhrəman oğul və qızlarının qanı və canı bahasına yazılıb. Bu gün Azərbaycan Ordusunun şəxsi heyəti ata-babalarımızdan bizə yadigar qalan Vətəni erməni hərbi birləşmələrindən azad etməklə, hərb tariximizin yeni səhifəsinin qızıl hərflərlə yazılmasına öz töhfəsini verir. Artıq Azərbaycan xalqının milli maraqları naminə Cəbrayıl, Füzuli, Hadrut, Suqovuşan və onlarla yaşayış məntəqələrimiz azadlığına qovuşub. Zəngilan, Ağdam, Qubadlı, Xankəndi, Şuşa,... isə Azərbaycan əsgərinin yolunu gözləyir. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan əsgəri xalqımıza sevinc bəxş etmək ərəfəsindədir. "Qarabağ Azərbaycandır!" şüarı ilə yola çıxan Azərbaycan Ordusunun zabit və əsgərləri ilə həmsöhbət olmaq imkanı qazandıq.*

**Zabit Ceyhun Bayramov:**

- Ordumuzun uğurlu döyüşləri, ard-arda qazandığı qələbələr, düşmənə vurduğu sarsıdıcı zərbələr bölmələrimizdə yüksək əhval-ruhiyyə yaradıb. Döyüş meydanında əldə edilən uğurlar şəxsi heyətin döyüş əzmini daha da artırıb, yeni-yeni qələbələrə ruhlandırır. 30 ilə yaxındır ki, erməni faşistlərinin işğal et-



dikləri tarixi torpaqlarımız, yaşayış məntəqələrimiz, kəndlərimiz azad olunur. Azərbaycan əsgərində döyüş əzmi var, erməni əsgəri isə səngərini, silahlarını, texnikalarını, şəxsi əşyalarını atıb sağ qalması üçün canını götürüb qaçır. Düşmən artıq məğlub olub. Əsgərlərimiz döyüşlərdə igidlik, fədakarlıq göstərir, düşməni məhv edirlər. Son qarış torpağımız erməni işğalçılarından azad olunanadək döyüşlərimiz davam edəcək. Ali Baş Komandanın qətiyyətli çıxışları bizi qalibiyyətə səsləyir. Qarabağımız, Şuşamız, ərazi bütövlüyümüz uğrunda irəli, yalnız irəli! Qarabağımızın, Şuşamızın azadlığı, ərazi bütövlüyümüzün bərpası ilə Azərbaycan Ordusunun zəfər tarixini biz yazacağıq! Yenilməz Azərbaycan Ordusu cəbhə boyu bütün istiqamətlərdə irəliləyir. Qələbə bizimdir. Qarabağ Azərbaycandır!

**Əsgər Rahib Abdullayev:**

- Çox sevinirəm ki, mən də torpaqlarımızın azadlığı uğrunda gedən haqq mübarizəsində iştirak edirəm. Azərbaycan əsgəri hər zaman igidliyi, qorxmazlığı ilə öndə olub, bu gün də ön sıradadır. Böyük Qələbəmiz naminə döyüşürük. Döyüşümüzü torpaqlarımız tamamilə azad olunanadək davam etdirəcəyik. Komandirlərimizin döyüş tapşırıqlarını uğurla yerinə yetiririk. Ordumuzun uğurlu döyüşləri tezliklə Böyük Qələbə gününü yaxınlaşdırır. Biz əsgərlər də Böyük Qələbənin əsgərləri kimi fəxr edəcəyik. Ən böyük arzum odur ki, düşmənin ayaqları birdəfəlik bizim torpaqlarımızdan kəsilsin. İllərdir ata-baba yurdundan ayrı düşmüş insanlar doğma el-obasına qovuşsunlar. Ordumuz güclüdür, biz qalib gələcəyik!

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Sadiq Vahidov:**

- Bu döyüşlər bir daha isbatladı ki, yüksək döyüş hazırlığı, vətənpərvərlik ruhu olan əsgər qarşısıalınmazdır. Bizim istəyimiz ölkəmizin ərazi bütövlüyünü təmin edib, işğaldan azad olunan torpaqlarımızda üçrəngli, ay-ulduzlu bayrağımızı dalğalandırmaqdır. Hamımız bu məqsədə doğru addım-addım irəliləyirik. Düşmən bilsin ki, bizi bu yoldan heç kim və heç nə döndərə bilməz. Ermənistan bu gün döyüş meydanında məğlub olduğunu anlayır. Ona görə də bizim mülki insanları, infrastrukturu hədəfə alır, terrorizmi təbliğ edən addımlar atır. Bu, düşmənin şərəfsizliyindən, qorxaqlığından xəbər verir. Əgər gücün çatırsa, əli silahlı və ya silahsız rəqibinlə meydanda döyüş. Anlamırlar ki, sivil insanları artilleriyadan atəşə tutmaq insanlıqdan kənar, şərəfsiz bir addımdır. Bu gün nəzər salsaq görərik ki, beynəlxalq qurumlar da erməni vandalizminə qarşı kəskin addımlar atmaqda acizdirlər. Lakin soydaşlarımıza bildirirəm ki, Azərbaycan əsgəri düşmənin cavabını artıqlamasıyla verməkdədir və Ali Baş Komandanın qətiyyəti ilə bundan sonra



da verəcəkdir. Heç kimin şübhəsi olmasın ki, ədalət gec-tez bərpa olunacaq. Bu gün Azərbaycan Ordusuna düşməni birmənalı olaraq Dağlıq Qarabağdan kənarlaşdırmaqda maneə təkcə Ermənistan ordusu deyil. Beynəlxalq aləmdə havadarları olmasa, onların müqəddəratı qısa müddət ərzində həllini tapar. Azərbaycan Ordusu düşmənlə meydanda təkbətək mübarizə aparsaydı, bu məsələ çoxdan bitmişdi. Lakin kimliyindən asılı olmayaraq, Azərbaycan əsgərinə bu müqəddəs tapşırığın həllində heç bir qüvvə mane ola bilməz. Çünki Azərbaycan əsgəri ölkəsinin haqq mübarizəsini aparır. Bu mübarizənin sonu Böyük Qələbədir. O gün təqvimdə xüsusi qeyd olunacaq. Heç kimin şübhəsi olmasın, Qələbə bizimlədir".

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İman Əsgərov:**

- Məkrli niyyətindən əl çəkməyən düşmən ordusunun birləşmələri törətdiyi təxribatın cavabını güclü ordumuz tərəfindən artıqlamasıyla alır. Azərbaycan Ordusu düşmənin cavabını verməklə kifayətlənmədi, yüksək döyüş ruhu ilə müqəddəs missiyanın məntiqi nəticəsi olaraq, tarixi ərazilərimizin müəyyən qismini düşmən işğalından azad etdi. Mənfur düşmən bu döyüşlərdə "itirə-itirə" getdi. Canlı qüvvələrini, texnikalarını itirən düşmən sonda "başını da itirərək" döyüş meydanından qaçdı. Bölməmizin yüksək döyüş ruhu, misilsiz rəşadəti ilə daha da irəlilədik, düşmənin dərinliklərinə enməyi bacardıq. Bu gün düşməndən təmizlənmiş strateji ərazilər hesabına ordumuz onların fəaliyyətini daha yaxından müşahidə edir və yarana biləcək təhdidlərin qarşısını vaxtında alır. Bir vaxtlar düşmənin ərazilərimizi atəş altında saxladığı mövqelərdə bu gün üçrəngli bayrağımız dalğalanır. O torpaqlarda üçrəngli bayrağın dalğalanması şəhidlərimizin qisasının alınmasından, Vətənə bağlılıqdan, xalqa sevgidən xəbər verir. "Vətənə bağlılıq, xalqa sədaqət" prinsipini özümüzə həyat amalı bilərək, milli-mənəvi dəyərlərimizə söykənən qəhrəmanlıq ənənələrini bu gün yaşadırıq. Yaşadırıq ki, bizdən sonrakı nəsil də bu ənənələrə sadiq olsun, onu müqəddəs bilsin, yaşatsın. Tarixi torpaqlarımızın azad olunması uğrunda gecə-gündüz döyüş əməliyyatlarında iştirak edir, onlara sarsıdıcı zərbələr vururuq. Düşmən ərazilərimizdən tam çıxarılana qədər onlara cavabımız sarsıdıcı olacaq. Şəxsi heyətimizin döyüş ruhu bunu deməyə əsas verir. İllərdir gözlənilən an artıq gəlib çatıb. Xalqımızın dəstəyini, Ali Baş Komandanımızın inamını dərindən hiss edirik. Gördüyümüz işin müqəddəsliyini dərk edirik. Amalımız isə düşmən işğalında olan tarixi ərazilərimizə qədəm qoyub, üçrəngli bayrağımızı o torpaqlarda dalğalandırmaqdır. Hər birimiz xalqımıza Böyük Qələbə gününün sevincini bəxş etmək üçün savaşırıq. Əminik ki, gün keçdikcə, o gün daha da yaxınlaşır.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Neman Cəfərov:**

- Qədim dövrdən igidlər məskəni olan yurdumuzun bugünkü Vətən müdafiəçiləri tariximizə qızıl hərflərlə yazılacaq günün təşnəsidirlər. Hər birimiz bu günün çoxdan arzusundayıq. Bu gün hər birimiz arzusunda olduğumuz günün sevincini yaşayırıq. Öz xain addımlarından əl çəkməyən düşmənin cavabı güclü ordumuz tərəfindən hər zaman verilib. Bu gün də müqəddəs torpaqlarımızı düşməndən azad etmək üçün hər birimiz döyüşlərə atılmışıq. Bu döyüşlərdə ölkə, xalq, ordu bir sözlə, bütün Azərbaycan düşmənə öz gücünü göstərdi. Xalqımızın mənəvi dəstəyindən, Ali Baş Komandanımızın qətiyyətindən güc alan Azərbaycan Ordusu bu gün düşmənin cavabını verməkdədir. Ali Baş Komandan və Azərbaycan xalqı sülh danışıqlarının nəticə verməyəcəyi təqdirdə, ordumuzun ədaləti bərpa edəcəyinə inanır. Düşünürəm ki, bizə olan inamı, etimadı layiqincə doğrulduruq. Döyüşlər gedən vaxtı tarixi torpaqlarımızı işğaldan azad etmək arzusu ilə vuruşurduq. Bu gün də işğalda olan digər ərazilərimizi düşməndən təmizləmək istəyi bizə əsas stimul verən amillər sırasındadır. Qazanılan uğurlar bizi daha yeni uğurlara səsləyir. Döyüşlərin gedişatından danışsaq, deyə bilərəm ki, yaşından, rütbəsindən, vəzifəsindən asılı olmayaraq döyüş meydanında hər birimiz bir bütün olduq, düşmənin qorxulu yuxusuna çevrildik. Qəsbkarlar tərəfindən sağ qalanlar bu günləri çətin unuda. Döyüş meydanında öz silahdaşlarını atıb qaçanlar kim, yalvaranlar kim, bir sözlə, düşmən həm fiziki, həm də mənəvi cəhətdən məğlub oldu. Onlar ömürlərinin axırlarına qədər bu utancla yaşamağa məcburdurlar. Biz isə həlledici döyüşə hərtərəfli hazırıq. Yaşasın, Azərbaycan əsgəri! Qarabağ Azərbaycandır!

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Vasif Namazov:**

- Məlum tarixdə düşmənin yenidən çirkin əməllərə əl atması ölkə rəhbərinin tarixi qərarı ilə sonuclandı. Düşmənin həmləsini dəf etməyi bacaran Azərbaycan Ordusu onu geri oturtdu. Döyüşlərin getdiyi qısa müddət ərzində böyük uğurlar qazandıq. Artıq döyüş meydanında üstünlük bizim tərəfimizdədir. Erməni silahlı qüvvələri nə maddi-texniki təminat baxımından,



nə də döyüş ruhu baxımından bizimlə mübarizə aparmaq qabiliyyətində deyil. Düşmən tərəfimizdən azad olunmuş mövqelərə soxulmağa cəhd etsə də, ilk həmlədəki kimi, xeyli itkilər verdi və məğlub olub geri çəkildi. Bu gün istər ön, istərsə də arxa cəbhədə düşmənə qarşı vuruşan hər bir azərbaycanlının qəlbində bir ucalıq var - Vətən. Bu ucalıq bizi qələbələrə doğru aparır. Bizi son damla qanımızadək, axırıncı nəfəsimizədək döyüşdürən də məhz bu ucalıqdır. "Vətəni sevmək Ananı sevməkdir" deyirlər, "Ananı sevmək isə Vətəni sevmək". Bu iki məfhumun vəhdətindən Ana Vətən anlayışı yaranır ki, onu qorumaq qəlbi Vətən eşqi, Ana sevgisi ilə coşub-daşan hər bir kəs üçün ən ümdə vəzifədir. Qəlbimizdə Ana Vətənə sədaqət hissi coşub daşdığına görə düşmən məğlubiyyətə düçar olmağa məhkumdur. Onlar anlamalıdırlar ki, tarixən əbədiyaşar sərkərdələr yetirmiş yurdumuzda qorxaq erməni əsgərinə yer yoxdur. Bu tarixi anların iştirakçısı olmaqdan qürur duyuruq. Qürur duyuram ki, düşmən işğalında olan ərazilərimizin geri qaytarılmasında az da olsa mənim də rolum var. Hər birimiz Ali Baş Komandanımıza minnətdarıq ki, illərdir bərpa olunmayan ədalətin bərqərar olunması üçün döyüş əmrini verdi. Bu əmr Ali Baş Komandan-xalq-ordu birliyini bütün dünya ölkələrinə nümayiş etdirdi. Ölkə Prezidentinin dəstəyi, xalqın etimadı Azərbaycan əsgərini qələbələrə daşıyır. Daha Böyük Qələbələr diləyi ilə, Qarabağ Azərbaycandır!



**(Ardı 5-ci səhifədə)**

# Biz öz torpağımızda döyüşürük, vuruşuruq!

(Əvvəli 4-cü səhifədə)

**Gizir Pərvin Muradov:**

- Bu gün Azərbaycan Ordusunu yalnız dünyanın ən inkişaf etmiş dövlətlərinin silahlı qüvvələri ilə müqayisə etmək olar. Artıq Azərbaycan Ordusu çoxdan arzuladığı səviyyəyə çatıb. Onun nəticəsidir ki, sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatında qələbələr sıralanır. Xalqımız öz silahlı qüvvələri ilə fəxr edir.

O inamdır zabit və əsgərlərə dəyanət verən, əminlik bəxş edən. O inamdır ordumuzu zəfərdən-zəfərə aparan. Ordunun döyüş qabiliyyəti əsgərin döyüş hazırlığından asılıdır. Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın geri qaytarılması üçün güclü hazırlığa, maddi-texniki bazaya malik olan ordunun olması əsas şərt idi. Bu gün qüdrətli bir orduya sahibik. Şəxsi heyətimiz elə bir səviyyədə döyüş hazırlığına malikdir ki, artıq düşmən qorxu içindədir. Düşmənin qoyub qaçdığı döyüş meydanı, silah-sursat, meyitləri bunu sübut edir.



Qarabağın hər qarış torpağı, dağı, çayı, bulağı doğmadır, əzizdir. Bu torpaqları mənfur ermənilərdən azad etmək bizim ən müqəddəs borcumuzdur. Bunun üçün hamımız bir yumruq kimi birləşib, Ali Baş Komandanın verdiyi əmri layiqincə yerinə yetiririk. Ulu babalarımızdan bizə əmanət qalan torpaqlarımızı geri qaytarmaq üçün əlimizdən gələni əsirgəmirik. Torpaqlarımızı işğaldan azad etmək üçün hamımız bir nəfər kimi döyüşlərə atılırıq.



Bu, Vətənə olan sevgi hissi, doğma torpağa olan məhəbbət duyğusudur. Vətən eşqi, torpaq sevgisi insanın qəlbinə hakim kəsilən, özündən asılı olmadan yaranan ümmandır. Vətəni sevmək və bu sevgi uğrunda canından belə keçməyə hazır olmaq isə hər bir vicdanlı əsgərin, hərbi qulluqçunun borcudur.

Sevinirəm ki, Azərbaycan əsgəri döyüş meydanında öz sözünü deyir. Bugünkü Azərbaycan əsgəri, hərbi qulluqçusu Azərbaycanın hərb tarixinə parlaq səhifələr yazır. Müharibə o vaxt sona çatacaq ki, erməni qəsbkarları tamamilə bu torpaqdan rədd olacaq. Azərbaycan əsgəri bu gün döyüş meydanında tarix yazır. Döyüş Cıdır düzündə Ali Baş Komandanımızın qalibiyyət paradı ilə bitəcək!

**Əsgər Etibar İmranov:**

- Komandirlərimiz deyir ki, atəşkəs əldə olunan gündən bu günə qədər düşmən ordumuz tərəfindən belə sarsıdıcı zərbələrə məruz qalmamışdı. Onların əl atdığı xain təxribata ordumuzun cavabı sərt olmalı idi və belə də oldu. Əks-həmlə hücumunda düşmən tərəf ağır itkilər verdi. Döyüş zamanı çaş-baş qalan düşmən silahlarını, texnikalarını, yaralı yoldaşlarını meydanda qoyub qaçırdı. Bunların hamısı onların qorxaqlığının göstəricisidir. Düşməndən təmizlənmiş ərazilərimiz bu gün Azərbaycan əsgəri tərəfindən etibarla qorunur. Hazırda Azərbaycan Ordusu bir çox yüksəkliklərə nəzarət edir. İşğaldan azad etdiyimiz ərazilərin çox mühüm strateji əhəmiyyəti vardır. Azad olunmuş ərazilərimiz hesabına düşmənə daha yaxşı nəzarət edə bilirik, onun fəaliyyətini daha yaxşı izləyirik. Lakin tam arxayınlaşmaq olmaz. Çünki döyüşlər hələ davam edir. Bu ruh yüksəkliyi ilə işğalda olan digər ərazilərimizi də mənfur düşməndən azad edəcəyik. Bu gün Vətən təəssübkeşliyi keçirən hər bir həmvətənim mənim yerimdə olmaq istərdi. Bu gün həyatımın ən yaddaqalan günlərini yaşayıram, Vətənə müqəddəs borcumu düşmənə qarşı vuruşaraq ödəyirəm. Yaşadığım sevinci sözlə ifadə etmək çətindir. Çünki həmin o sevinci anlamaq üçün döyüş meydanında olmaq, silahdaşlarının döyüş ruhunu görmək və xalqın dəstəyini hiss etmək lazımdır. Əminəm ki, sevinclərin ən alisini müqəddəs Azərbaycan bayrağı işğaldan azad olunacaq Şuşa, Zəngilan, Xankəndi, Kəlbəcər, Laçın... və digər əzəli və əbədi torpaqlarımızda dalğalandıqda yaşayacağıq.

**Əsgərlər Sübhan Zəfərov və İsa Haqverdiyev:**

- Vətən, torpaq uğrunda döyüşmək hər bir oğulun borcudur. Bu gün biz də torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə iştirak edən Azərbaycan əsgərlərinin sırasında olmağımızla qürurlanırıq. Xalqımız hər gün ordumuzdan gələn qələbə xəbərlərini eşidir. Düşmən işğalında olan ərazilərimiz azad olunur. Biz döyüş ruhundayıq. Bu günü çox böyük səbirsizliklə gözləmişik. Son qarış torpağımız azad olunanadək irəli, Azərbaycan əsgəri! Böyük Qələbənin əsgərləri biz olacağıq! Bu gün Azərbaycan əsgəri şanlı hərb tariximizə yeni-yeni qəhrəmanlıq səhifələri yazır. Döyüşlərimiz davam edir. Haqq döyüşümüz bizim qələbəmizlə başa çatacaq.

**Əsgər Kənan Mustafayev:**

- Uşaqlığımdan Vətənimizin gözəllikləri haqqında çox eşitmişəm, eşitdiklərim sevgiyə dönüb, Vətən sevgisini daha da dərinləşdirib. Səttar Bəhlulzadənin, Maral Rəhmanzadənin çəkdiyi tablolar bu sevgini daha da incələşdirib. Bu duyğularla böyümüşəm, bu duyğularla hərbi xidmətə getmişəm, bu duyğularla xidmət etmişəm.

Vətən müharibəsi gedir. Əks-hücum əməliyyatı kimi başlayan döyüşlər torpaqlarımızı işğaldan azad edəcək döyüşlər kimi davam edir. Mən də bu döyüşlərin iştirakçısıyam. Komandanlığın əmrlərini həm hərbçi, həm də əsl vətəndaş kimi yerinə yetiririk - döyüşürük. Neçə-neçə strateji yüksəklikləri, yaşayış məntəqələrini, Suqovuşanı, Cəbrayıl və Füzuli şəhərlərini düşməndən azad etmişik.



Düşmən faşist xislətlidir. Onlar müharibə qanunlarına əməl etmirlər. Bu, vandallıqdır, vəhşilikdir.

Biz torpaqlarımızı işğaldan tamamilə azad edəcəyik, qalib əsgər kimi tərxis olunacağıq. Müharibədən sonra yaşayış məntəqələrimizin Cocuq Mərcanlı kimi yenidən qurulmasında da iştirak edəcəyik.

Mən fəxr edirəm ki, Azərbaycan Ordusunun əsgəriyəm. Mən fəxr edirəm ki, Vətən müharibəsində iştirak edirəm. Belə komandirlərimlə, belə əsgər yoldaşlarımla fəxr edirəm!..

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Aydın Əsgərov:**

- Torpaqlarımız uğrunda döyüşürük. Heç kimin torpağında gözümüz yoxdur. Qarabağ bizim tarixi torpağımızdır. O torpaqlarda əcdadlarımızın, atababalarımızın məzarları qalıb. İnsan necə unuda bilər öz doğma elini, obasını. Vətənin hər qarış torpağı əzizdir. 30 ilə yaxındır ki, erməni faşistləri doğma torpaqlarımızı işğal edib, evlərimizi viran qoyublar. Azad olunan ərazilərimizdə bunların bir daha şahidi oluruq. Erməni vandalizmi nəticəsində məzarlarımız, abidələrimiz dağıdılıb. İndi isə döyüş texnikalarını, şəxsi əşyalarını atıb, canlarını götürüb qaçırlar. Düşmən tezliklə təslim olacaq. Döyüşlər torpaqlarımız tamamilə azad edilənədək davam edəcək. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusu öz tarixi torpaqlarını erməni faşistlərinin işğalından azad edir. Hər gün yeni qələbə xəbərləri xalqımızı sevindirir. Bu sevinc biz döyüşçüləri də Qarabağımızın azadlığı, ərazi bütövlüyümüz uğrunda qətiyyətli döyüşlərə ruhlandırır. Biz çox yaxşı bilirik ki, xalqımız öz ordusunun gücünə güvənir. Azərbaycan əsgərinin bu gün döyüş meydanlarında göstərdiyi qəhrəmanlıqlar xalqımızı qürurlandırır. Daha yeni qələbələrə, Qarabağımızın azadlığına doğru, Azərbaycan əsgəri! Bu savaş haqq savaşımızdır. Bu müqəddəs Vətən savaşımızdır. Biz bu Vətən savaşında qalib gələcəyik!

**Əsgər Fərhad Qədirov:**

- Bizi qürurlandıran xalqımızın ordumuza, Azərbaycan əsgərinə olan güvənidir. Erməni terrorçuları bu gün dinc əhalini - körpə uşağı, qadını, qocanı hədəf alır. Düşmənin xisləti budur. Fitnəkarlıq, riyakarlıq, faşizm ermənilərin qanında, canındadır. Onları torpaqlarımızdan qovacağıq. Dinc insanlarımızı qətlə yetirən erməni terrorçularını sona qədər məhv edəcəyik. Xocalıda qətliam törədən ermənilər bu gün Gəncədə dinc, günahsız insanlarımıza qarşı terror törətdilər. Yüzlərlə ermənini məhv etməklə günahsız insanlarımızın qisasını aldıq. Heç zaman simasını dəyişməyən erməni faşizmi hər dönəmdə iç üzünü göstərir. Düşmən cəbhə xəttindən uzaq məsafələrdə yerləşən ərazilərimizi atəşə tutur, evlərimizi, yaşayış binalarımızı dağıdır. İnsanlarımız yaralanır. Onlar heç nədən qorxmurlar, ordumuza güvənərək evlərini tərk etmirlər.

Erməni işğalçılarını Azərbaycan əsgəri məhv edir, onları zəbt etdikləri torpaqlarımızdan qovur, doğma yerlərimiz kənd-kənd azad olunur. Şanlı bayrağımız dalğalanır azad olunan torpaqlarımızda. Böyük Qələbəyə yaxınlaşırıq. Tezliklə Böyük Qələbə xəbərinin sevincini xalqımıza Azərbaycan əsgəri yaşadacaq, biz yaşadacağıq.

**Əsgər Murad Dadaşzadə:**

- Bu günlər mən həyatımın ən qürurlu günlərini yaşayıram. Dünənə kimi əlimizdə silah ön xətt bölmələrində Vətənimizin keşiyində dayanıb, düşmən təxribatlarının qarşısını alırdıqsa, bu günlər isə erməni faşistlərini məhv edib, işğal etdikləri torpaqlarımızdan qaçmağa məcbur edirik. Erməni əsgərləri heç bir müqavimət göstərmədən ya təslim olur, ya da qaçırlar. Bu onların sonu deməkdir. Qələbə bizimdir, tezliklə rəşadətli ordumuz Qarabağımızı, Şuşamızı, Laçınımızı bütün işğal olunan torpaqlarımızı düşməndən təmizləyəcək, Azərbaycan əsgəri o yerlərə üçrəngli bayrağımızı sancacaq!



**Əsgər Aqil Abbasov:**

- Torpaqlarımızın azadlığı uğrunda döyüşlərimiz davam edir. Düşmənin acizliyini, qorxaqlığını hər addımda hiss edirik. İşğalçıların bölmələrində fərarilik baş alıb gedir. Erməni əsgərləri qorxu içindədirlər. Silahlarını atıb qaçırlar, heç biri döyüşü davam etdirmək istəmir. Biz torpaqlarımızın azadlığı uğrunda son damla qanımızadək döyüşürük. Azad edilən torpaqlarımıza üçrəngli müqəddəs bayrağımız sancılır. Fəxr edirik ki, biz Böyük Qələbənin əsgərləriyik. Düşmənin bölmələri sərrast atəşimizlə məhv edilir. Ermənilər döyüş texnikalarını, hərbi maşınlarını atıb qaçırlar. Bu gün Azərbaycan əsgəri düşmənin işğal etdiyi torpaqlarımızda qurduqları istehkamları, səngərləri darmadağın edir, hücuma keçir. Erməni işğalçılarını torpaqlarımızdan qovuruq. Sevinirik ki, vaxtilə o torpaqlardan qaçqın, köçkün düşən soydaşlarımız tezliklə doğma yurdlarına qayıdacaqlar. Oralara yenə də əvvəlki kimi həyat qayıdacaq, dövlət başçımızın diqqət və qayğısı sayəsində viran qoyulmuş ərazilər yenidən qurulacaq. O gün uzaqda deyil.

# Hikmət Hacıyev: Azərbaycan Silahlı Qüvvələri düşmənin təxribatlarına layiqli cavab verir



Oktyabrın 19-da ADA Universitetində Azərbaycanda akkreditə olunan diplomatik korpusun nümayəndələri və xarici hərbi attaşelər üçün brifinq keçirilib.

Brifinqdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Ermənistan Azərbaycanın mülki əhalisini atəşə tutmaqda davam edir. Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı dövlət səviyyəsində terror aktları həyata keçirir.

Prezidentin köməkçisi qeyd edib ki, oktyabrın 10-da Ermənistanla Azərbaycan arasında humanitar atəşkəs barədə razılaşma əldə edilməsinə baxmayaraq, bir qədər sonra münaqişə zonasından kənarda yerləşən Gəncə şəhərində mülki əhali atəşə tutuldu. Gəncədə hərbi hədəf yox idi. Sadəcə, ermənilər bilərəkdən dinc vətəndaşları qətlə yetirmək üçün həmin əraziləri atəşə tutdular.

Hikmət Hacıyev deyib ki, Ermənistan Azərbaycanın digər şəhərlərini, o cümlədən sənaye şəhəri olan Mingəçeviri də atəşə tutub. Onlar Gəncədə böyük vəhşilik törədiblər. Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı dövlət səviyyəsində terror aktları həyata keçirsə də, xalqımızın iradəsini qıra bilmədi.

"Ermənistanın hərbi-siyasi rəhbərliyi yeni ərazilərin ələ keçirilməsi ilə bağlı absurd iddialar irəli sürürdü. Bu kimi addımlar, təbii ki, sülh danışıqlarının və münaqişənin dinc yolla həll olunmasının üzərindən xətt çəkirdi. Reallıq bir daha göstərir ki, Azərbaycan tərəfi təhlükə altındadır, Ermənistan yox. Çünki Ermənistan tərəfi Azərbaycanın dinc əhalisinə qarşı məqsədyönlü raket hücumları həyata keçirir. Məhz buna görə də Azərbaycan əhalisi təhlükə qarşısındadır", - deyə Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan Silahlı Qüvvələri və Azərbaycan rəhbərliyi müvəqqəti humanitar atəşkəsə sadiqdir. Lakin Ermənistan tərəfinin davam edən təxribatları bizi vadar edir ki, öz əhalimizin, dinc sakinlərimizin təhlükəsizliyini təmin edək. Təkcə dünən gün ərzində Azərbaycanın 5 rayonu 229 mərmiyə hədəf olub. Ermənistanın davam edən hərbi təcavüzü nəticəsində Azərbaycanın yaşayış məntəqələrinə, mülki obyektlərinə 24 mindən çox mərmi atılıb, 1846 ev yararsız vəziyyətə düşüb.

Hikmət Hacıyev onu da vurğulayıb ki, Azərbaycan Ermənistandan fərqli olaraq mülki əhalini hədəfə almır, yalnız hərbi hədəflərə istiqamətlənir. Ermənistanın törətdiyi vəhşiliklərə ad tapmaq olmur. Azərbaycan humanitar atəşkəsə əməl etsə də, Ermənistanın təxribatlarına cavab vermək məcburiyyətində qalır. Ermənistanın bu hərəkətləri bütün konvensiya və qanunların kobud şəkildə pozulmasıdır.

Prezidentin köməkçisi qeyd edib ki, humanitar atəşkəs elan edildən 2 dəqiqə sonra Ermənistan silahlı qüvvələri təxribatlar törətdi. Azərbaycan Silahlı Qüvvələri isə onların layiqli cavablarını verdi. Bunun nəticəsində bir sıra kəndlərimiz işğaldan azad edildi. Bununla bağlı Prezident, Ali Baş Komandan İlham Əliyev də özünün "Twitter" hesabından xalqımıza xoş xəbəri çatdırıb.

Hikmət Hacıyev bildirib ki, hazırda ön cəbhədə vəziyyət gərgin olmaqda davam edir. Azərbaycan Silahlı Qüvvələri düşmənin təxribatlarına layiqli cavab verir.

"Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrinə və mülki əhalisinə qarşı hücumları ilə bağlı hər bir fakt Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən sənədləşdirilir, cinayət işləri başlanır, materiallar toplanır", - deyə Hikmət Hacıyev diqqətə çatdırıb.

- Daxili prosedurlar başa çatdıqdan sonra Ermənistan silahlı qüvvələri tərəfindən yaşayış məntəqələrinə və mülki əhaliyə qarşı hücumlarla bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə və digər aidiyyəti qurumlara müraciətlərin edilməsi nəzərdə tutulub.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov qeyd edib ki, Ermənistan Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti həyata keçirib. Onlar Azərbaycan ərazisinin 20 faizini işğal edib. Ermənistan işğal olunmuş Azərbaycan ərazilərində qanunsuz iqtisadi fəaliyyət həyata keçirib.

Elçin Əmirbəyov bildirib ki, Azərbaycan uzun illər münaqişənin sülh yolu ilə həll olunmasını gözləyib. Lakin əfsuslar olsun ki, Ermənistan qeyri-konstruktiv mövqe göstərərək, münaqişənin sülh yolu ilə həllinə imkan vermədi. Azərbaycan konstruktiv mövqe nümayiş etdirsə də, Ermənistan təxribatlara əl atdı. Bu gün də Ermənistan Azərbaycan xalqına qarşı müharibə cinayətləri törətməkdə davam edir.

Müdafiə Nazirliyinin Beynəlxalq hərbi əməkdaşlıq idarəsinin rəisi general-mayor Hüseyn Mahmudov brifinq iştirakçılarının diqqətinə çatdırıb ki, Ermənistan silahlı qüvvələri sentyabrın 27-də Azərbaycana qarşı genişmiqyaslı təxribatlara başlayıb. Azərbaycan Ordusu vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək üçün beynəlxalq hüquq normaları çərçivəsində əkshəmlə əməliyyatı həyata keçirir. Düşmən humanitar atəşkəsdən toparlanmaq və işğaldan azad edilən əraziləri yenidən nəzarətə almaq üçün istifadə etməyə çalışır. İkinci dəfə əldə olunan humanitar razılaşmadan sonra - oktyabrın 18-i gecə saatlarından başlayaraq Ermənistan tərəfi Cəbrayıl, Hadrut və digər istiqamətlərdə Azərbaycan Ordusunun mövqelərinə hücum edib.

Brifinqdə iştirakçılara işğal olunmuş ərazilərdə həyata keçirilən əməliyyatlar və azad edilmiş ərazilər, Ermənistan ordusuna vurulmuş ziyan barədə məlumat verən general-mayor Hüseyn Mahmudov bildirib ki, düşmən təmas xəttindən xeyli uzaqda yerləşən şəhər və rayonlarımıza da raket və artilleriya zərbələri endirir, mülki şəxsləri hədəfə alır. Lakin Azərbaycan Ordusu yalnız Ermənistan silahlı qüvvələrinin legitim hərbi hədəflərinə zərbə endirir: "Ermənistan ordusu işğaldan azad olunan ərazilərimizi yenidən zəbt etmək üçün ardıcıl hücumlar təşkil edir. Bunun üçün raketlərdən, ağır artilleriyadan və aviasiyadan istifadə olunur. Lakin Azərbaycan Ordusu bu cəhdlərin qarşısını aldı və düşmənin Su-25 təyyarəsini məhv etdi. Hazırda bütün cəbhə boyu vəziyyət ordumuzun nəzarəti altındadır. Ermənistan bütün qanunları və konvensiyaları kobud şəkildə pozur. Azərbaycanın əks-hücumları zamanı məhv edilən düşmənin hərbi texnikalarının sayı Ermənistan ordusunun işğal altındakı ərazilərimizdə necə böyük hərbi qüvvə yerləşdirdiyini göstərir".

**"Azərbaycan Ordusu"**

# Cəbrayıl və Füzuli istiqamətində düşməndən ələ keçirilən hərbi qənimətlər





***20 oktyabr 2020-ci il.***

Oktyabrın 19-u gün ərzində və 20-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir.

Eyni zamanda məlum olub ki, Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub. Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılıb. Alay komandirinin müavini Hovik Melkumyan, digər vəzifəli şəxs Qor Mirzoyan, həmçinin alayın müdafiə zolağında mövqe tutan xüsusi təyinatlı bölmənin komandiri kapitan Vahab Asetryan da zərərsizləşdirilib.

Azərbaycan Ordusunun həyata keçirdiyi tədbirlər nəticəsində 2-ci motoatıcı alayın müdafiə sahəsində düşmənin bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilib.

5-ci dağatıcı alayın müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. Yaralılar arasında bölük komandiri Norik Ağakelyanın da olduğu bildirilir.

18-ci motoatıcı diviziyasının müdafiə zolağında yerləşdirilən muzdlulardan ibarət "Legion" dəstəsi və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər döyüşlərdə iştirak etməkdən imtina edib. Məlum olub ki, ağır itkilərə məruz qalan bu dəstələr onlara tapşırılmış müdafiə sahələrində tab gətirməyərək kütləvi şəkildə fərarilik edir.

Bundan əlavə, 10-cu dağatıcı diviziyanın müdafiə zolağına gətirilmiş kəşfiyyat bölüyü də canlı qüvvə baxımından itkilərə məruz qalıb. Şəxsi heyətin üçdə ikisini itirən bölmə mövqeləri ataraq geri çəkilməyə məcbur edilib.

Füzuli rayonu istiqamətində əks-hücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilib.

246-cı alayın müdafiə sahəsində alay komandiri polkovnik Tatul Qazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri də xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Döyüş bayrağı - Qalibiyyət bayrağı



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan əsgəri döyüş-döyüş Böyük Qələbəyə yaxınlaşır. Döyüşənlərin qələbə ruhu açılan səhərlərin şükranlıq duasıdı elə bil. Döyüşənlərin - döyüşçülərin baxışlarında çırpınan bu ruh min illərin tarixə dediklərinin ifadəsidi: Tarix yazanların qətiyyətinin kəsəri gözəgötürməzlərə həmişə görk olub. Torpaqlarımızı işğaldan Azərbaycan əsgərinin qələbə ruhu, dövlətə sədaqəti, bir də bu görk xilas edir - bu görk Azərbaycan əsgərinin Vətənə sədaqətidi. Bu sədaqət Böyük Qələbənin işığı kimidi - dostun gözlərinin nurunu artırır, qəlbipaxırların gözlərini qamaşdırır!..

Vətən müharibəsidi...

Azərbaycan əsgəri döyüş-döyüş irəliləyir, yaşayış məntəqələrimizi ermənisizləşdirərək irəliləyir, düşməni çıxnayıb keçərək irəliləyir - Şuşaya yaxınlaşır. Düşmən Azərbaycan əsgərinin döyüş əzminin, qələbə ruhunun kükrəyişindən qaçır.

Zabit Elcan İsmayılov gözdolusu əsgərlərə baxır. Biz də qarşı tərəfə bu baxışların doğmalığından baxırıq. Baxışlarımız bir vaxtlar qızılbaşların keçdiyi körpünün süvarisinə dönüb. Həsrətimiziydi bu körpü. Bir vaxtlar bu körpüyə gözucu baxmağı da qadağan eləmişdilər. 1993-cü ilin yayında Zəngilana ezamiyyətə gedəndə ürəyim məni Xudafərinə sarı çəkmişdi. Körpüyə çatar-çatmaz qarşımızı kəsmişdilər. Ayağımızın körpüyə toxunmağına da imkan verməmişdilər. İndi... İndi qardaşım əsgər, oğlum əsgər, gözlərimin nuru əsgər, ruhumun sirdaşı əsgər Xudafərini illərin intizarından xilas eləyib - Xudafərin sıxılcım qınından sıyrılıb. Gözlərin aydın, Vətən! Gözlərin aydın, Xətaimiz! Gözləriniz aydın, şəhid qardaşlarımız! Xudafərində Azərbaycan bayrağı dalğalanır! Azərbaycan əsgəri Xudafərinin tağlarına üz sürtmək istəyənlərin niyyətini gerçəkləşdirib. Diridağdan əsən yellər əvvəlki kimi çılğın deyil. İndi əsə-əsə bayrağımızın sığalına dönüb.

Zabitin qürurunun boyu boyumuzdan ucadı. Bu qürur yaşarı qürurdu. Bu qürur işıqlı qürurdu, bəşəri qürurdu, yaşarı qürurdu. Füzuli şəhərinin işğaldan azad edilməsi sevinci Cəbrayıl şəhərinin işğaldan azad edilməsi sevinciylə elə gözəl qovuşmuşdu ki! Bu qovuşma Xudafərin sevinciylə süsləndi. Ağdam, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın, Şuşa sevincini də bu qürur yaşadacaq - Azərbaycan əsgəri yaşadacaq. Həm də yaxın vaxtlarda.

Tarixdə yaşayan, tarixləri yaşadan bu körpünün sıxıntılardan xilası Azərbaycan əsgərinin tarixi qələbəsidi, azad etdiyi körpüdə Azərbaycan bayrağını dalğalandırmaq qalibiyyət uvertürasıdı - daha böyük qələbələrə yol göstərən uvertüradı.

Zabit Elcan İsmayılov deyir ki, orta məktəbdə oxuyanda tarixlə də maraqlanırdım, tariximizi həvəslə oxuyurdum Səfəvilər dövrü tariximizi daha böyük istəklərlə öyrənirdim. 11 tağlı Xudafərin uğura çıxanları, mənzil yoranları Cənubdan Qarabağa gətirən, Qarabağdan Cənuba aparan keçid - körpü olub. Xudafərin illərlə elləri ellərə, əlləri əllərə qovuşdurub. Və 1993-cü ildə Cəbrayıl kimi o da tarixin sınağına tuş gəlib - işğal olunub. "Zabitin fikirləri könlümü telləndirir. Həm Xudafərinimiz haqqında bilgiləri duyğusallıqla yenidən eşitdiyimə görə, həm zabitin tariximizə sevgisinə görə, həm də əsgərlərin bu ruhda xidmətinə, indi bu ruhda döyüşməsinə görə...



Zabitin kəlmələri hamının düşüncələrində gərəkli bir tərpəniş yaradır. “Xudafərin 1993-cü ildən üzü bu yana doğma səs eşitməyib, doğma nəfəs duymayıb, doğma baxış görməyib. Azərbaycan əsgəri ona yeni yaşam verdi", - deyirəm.

Əsgər Adəm Məmmədov hərdən göy üzünə baxır, hərdən Xudafərinə sarı. "Xudafərinin üç orta tağı qalır, kənar tağları dağıdılıb", - deyir. Əsgərin təəssüfü hamı kimi mənə də doğma təəssüfdü. Bu təəssüf mənim də düşüncələrimin pərsənginə dönür. “O tağları tariximizə azərbaycançılığa qəsd kimi 30-cu illərdə SSRİ hökuməti dağıdıb”, - deyirəm. Bir anlığa baxışım Adəmin baxışlarıyla qoşalaşır. Fikrimi "Xudafərin Bəkr ibn Abdullahın körpüsüdü, Allahın körpüsüdü, Allahını tanıyanların, Allah adamlarının, xeyirxahların, insanlığa, bəşəriliyə xidmət edənlərin körpüsü olub, Azərbaycan əsgərinin qalibiyyət ruhunun nəticəsi olan bu tarixi gündən - 18 oktyabrdan sonra da bəşəriliyə belə xidmət edəcək", - kəlmələriylə tamamlayıram. Və ruhumdan boy göstərən 18 oktyabr tarixinin həm də Xudafərinin yeni doğum tarixi kimi qeyd ediləcəyini xatırlayıb əsgərlərin baxışını, duruşunu, təbəssümünü bir də, daha doğmalıqla yaddaşıma köçürürəm. Gizir Raquf Əliyev "Hər birimizin istəyini, niyyətini hərbi xidmət ümumiləşdirir. Hamımız Ali Baş Komandanın əmriylə döyüşmək, torpaqlarımızı azad etmək niyyətiylə xidmət etmişik. Döyüşlər başladı. Əks-hücum əməliyyatı kimi davam edən döyüşlərin iştirakçısı olmaq mənim hərbçi taleyimin uğurudu. Döyüşürük, Ali Baş Komandanın dediyi kimi, torpaqlarımızı işğaldan tamamilə azad edəcəyik. Suqovuşanın, Cəbrayılın, Füzulinin, Xudafərinin sevinci Böyük Qələbənin sevincinin başlanğıcıdı.

Baxışlarını bir təbəssüm bürüyür. Gözəl təbəssümdü, sevgi var bu təbəssümdə:

- Əsgərlərimiz - döyüşçülərimiz bir-birinin ruh qardaşıdı, indi ortaq qələbə onları daha böyük amallarla qardaşlaşdırıb. Bilmirəm, onların bir istəyini necə adlandıraq. Hər qələbədən sonra qələbə bayrağını hamısı dikəltmək istəyir. Komandirimiz "qələbə birlikdə qazanılır, deməli, kimin dikəltməsindən asılı olmayaraq, onu hamınız dalğalandırırsınız", - deyir. Hər birində bayrağımız var. Hər birini döyüşə qələbə ruhuyla bayrağımız aparır...

Əsgər Əlövsət Məmmədov gizir Raquf Əliyevin sözünə qüvvət kimi deyir ki, Xudafərində dalğalanan bayraq ruhumuzun bayrağıdı. Onu qələbəni qazanan, qələbəsiylə tarix yazan, tarixlər yazacaq Azərbaycan əsgəri dikəldib. Elə bilirik biz dikəltmişik. Bütün əsgərlər belə bilsin.

Sərin-sərin meh əsir. 27 il əvvəlin yayında Xudafərinin yaxınlığında dayanıb ora getməyi, onun tağlarına toxunmağı, üz sürtməyi arzulayanda da belə həzin meh əsirdi. O mehi də bizə çox gördülər. Xudafərini son dəfə onda görmüşdüm. İndiki görkəmi qəhərdən qurtulmuşların görkəmi kimidi; bu körpüdən Azərbaycan adını ürəyinin döyüntüsündə daha doğmalıqla hiss edənlər keçəcək...

Zabit Elcan İsmayılovun əli doğmalıqla əsgər Əlövsət Məmmədovun çiyninə enir. Bu ünsiyyəti Vətən müharibəsində zabit-əsgər münasibətinin qüruru kimi köçürürəm düşüncələrimə. Yadıma "Əsgər atası" bədii filmi düşür. Maxaraşvilinin Arkadiyə münasibətinin bənzərini, əzizliyini, doğmalığını, məhrəmliyini görürəm. Zabit də, əsgər də qələbədən, Böyük Qələbədən sonra bu günləri kövrəkliklə xatırlayacaq. Xudafərində dalğalanan bayraq onların da xatirələrinin mehrabı olacaq. O xatirələr döyüşlərin tarixi kimi yaşanılacaq. Dinləyənlərə elə gələcək ki, döyüşlərin içində olub, onlar da döyüşüb, onlar da qələbələr qazanıb, onlar da mövqelərdə, yüksəkliklərdə, yaşayış məntəqələrində bayrağımızı qələbə rəmzi kimi dalğalandırıb...

İnsan təbiətdən güc alır, güc alar. İndi Azərbaycan əsgəri təbiətə də hökm etmək qüdrətindədi. Hərdən əsən, hərdən kəsən, əsə-əsə harasa tələsən yelin qanadları yorulan deyil - Azərbaycan əsgərinin qətiyyətindən, döyüş əzmindən, qələbə ruhundan güc alır. Əsə-əsə qarşı tərəfə meyillənir. Bir azdan Azərbaycan əsgərinin süpürüb atacaqlarının canına daraşır - səksəkə kimi, qorxu kimi, vahimə kimi. Ölmək istəməyən qaçacaq. Düşmənin ölmək istəməyənləri çoxdu, ölmək istəməyənləri direniş göstərmək istəyənlərlə idəşəcək, sözləşəcək, atışacaq...

Vətən müharibəsi döyüş-döyüş davam edir...

Söz sözü çəkir; hər kəlmə döyüş əzmi, hər kəlmə qələbə ruhu, hər kəlmə qələbə. Zabit Elcan İsmayılov bayaqkı fikrinin davamı kimi "Xudafərində bayrağımızın dalğalanmasını növbəti qələbələr tamamladı. Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı, Sarafşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli, Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng (Vəng kəndi bundan sonra Çinarlı kəndi adlanacaq), Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad edilməsi qələbə ruhumuzu daha da kükrədir.



Əsgər Adəm Məmmədovun dediklərini bütün əsgərlərimizin ortaq istəyi, diləyi, murazı, niyyəti bilirəm: "Bayrağımızın Şuşada dalğalanacağı günə az qalıb.” Bu müqəddəs diləyi əsgər Əlövsət Məmmədov daha kövrək, daha duyğusal kəlmələrlə tamamlayır: “Torpaq şəhid-şəhid qorunur, torpaq şəhid-şəhid azad edilir. Torpaqlarımızın azad edilməsi uğrunda hər birimiz şəhidliyə hazırıq. Ancaq... ancaq Şuşada qələbə bayrağımızı dalğalandıranların sırasında olmaq istəyirəm...". "Bu gözəl niyyətinə çatacağın gün səni bağrıma basacam, əsgər qardaşım!", - deyirəm...

Neçə gün əvvəl düşməni artilleriya atəşinə tutanlarımızla kəlmələşəndə əsgərlərdən biri demişdi ki, biz döyüşləri əks-hücum əməliyyatını torpaqlarımızı işğaldan azad edəcək döyüşlər kimi davam etdiririk. Əsgərin qətiyyəti, əsgər yoldaşlarının, əsgər yoldaşlarının timsalında ordumuzun bütün əsgərlərinin, zabitlərinin - hərbçilərinin fikrini ifadə etməsi bizə həm könül xoşluğu vermişdi, həm də əminliyimizin güvəncinə dönmüşdü. Onda həmin əsgərə demişdim ki, bu müharibə Vətən müharibəsidi. Vətən müharibəsi Vətənin ərazi bütövlüyünün bərpa edilməsiylə nəticələnəcək. Qazanılan qələbələr sonun başlanğıcıdı. Bu qələbələri məmləkətimiz belə yaşayır...

Bayrağımız dalğalanır Xudafərində! Nə gözəl qələbədi! Nə gözəl misradı! Bu gözəl misranı mənə siz yazdırıbsınız, Azərbaycan əsgəri! Siz tarixlər yazırsınız və yazdığınız tarixlər tarixi misralar, şeirlər, əsərlər yazdıracaq. Şəhriyarımızın ruhuna "Heydər baba, bu bayrağı öy görüm!", - deyənlərin sırasında mən də varam...

Kəlmələrimi uzaqlara aparan yelləri baxışlarım uğurlayır. Qaliblərin sırasında Vətən müharibəsinin son döyüşünün son güllələrini atacaq əsgərlərin əlini sıxmağa niyyətliyik. Axı bayrağımız dalğalanır Xudafərində. Şuşada da belə qürurla, belə əzəmətlə dalğalanacaq!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Döyüşlərdə iştirak edən şəxsi heyət arasında aparılan təbliğat və təşviqat işləri davam edir





Döyüşlərdə iştirak edən hərbi qulluqçuların döyüş əzminin daha da artırılması məqsədilə Müdafiə Nazirliyi Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən təbliğat və təşviqat tədbirləri davam etdirilir.

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müraciətləri, təbrikləri, eləcə də ordumuzun uğurları barədə məlumatlar operativ şəkildə döyüşlərdə iştirak edən şəxsi heyətə çatdırılır. Cəbhədə rəşadət göstərən hərbi qulluqçularımızı təbliğ edərək ruh yüksəkliyinin artırılması məqsədilə işlər görülür.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirlər çərçivəsində "Əsgərə məktub" layihəsi də böyük coşqu ilə davam edir. Ordumuza dəstək olan vətəndaşlarımızın döyüşlərdə iştirak edən şəxsi heyətə ünvanladıqları məktublar hərbi qulluqçularımızda xoş təəssürat yaradır və onlar tərəfindən sevinclə qarşılanır. Hərbi qulluqçular da öz növbəsində xalq-ordu birliyinin təntənəsi olan ordumuza dəstək kampaniyasında iştirak edən hər kəsə öz təşəkkürlərini çatdırır.

# <u>Mustafa Şentop:</u> Cəbhədə Azərbaycan Ordusundan ardına belə baxmadan qorxub qaçan ermənilər ancaq mülki insanları hədəf alırlar

Ermənistan ordusu Azərbaycanın işğal edilmiş torpaqlarından çıxmalıdır. Məsələnin bundan başqa həlli yolu yoxdur. Ermənistana dayaq olanlar bilməlidir ki, Qafqazda bunu sona qədər davam etdirə bilməyəcəklər. Ermənistan da bilməlidir ki, böyük qardaşları ona sona qədər dəstək olmayacaq. Sonda onlar qonşuları ilə baş-başa qalmağa məcbur olacaqlar.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop oktyabrın 20-də Milli Məclisin iclasındakı çıxışında bildirib.

TBMM-in sədri qeyd edib ki, Prezident Rəcəb Tayyib Ərdoğanın da dediyi kimi, Azərbaycanın daha 30 il gözləməyə səbri yoxdur. Artıq beynəlxalq təşkilatlar öz qərarlarının icra etməyə borcludurlar. Ermənistan BMT-nin qərarlarına məhəl qoymadı. ATƏT-in Minsk Qrupu problemi həll etmək üçün indiyə kimi heç bir real irada nümayiş etdirmədi.

Mustafa Şentop deyib ki, gücü qəhrəman Azərbaycan əsgərinə çatmayan, cəbhədə Azərbaycan Ordusundan ardına belə baxmadan qorxub qaçan ermənilər ancaq mülki insanları hədəf alırlar. Bütün dünyadan soruşuram. Sizin qərarlarınızı heçə sayan Ermənistanın addımlarını mühakimə etməyəcəksinizsə, nəyi edəcəksiniz?!

TBMM-in sədri bildirib ki, Ermənistan Azərbaycana qarşı yeni təxribatlara əl atdı, lakin gözləmədiyi bir vəziyyətlə üzləşdi. Qəhrəman Azərbaycan Ordusu torpaqların işğaldan azad edilməsi əməliyyatına başladı. Bəzi dövlətlər Azərbaycanı bu haqq işində günahlandırsalar da, Azərbaycan beynəlxalq hüquqa əsasən öz torpaqlarını işğaldan azad edir. Heç kim Azərbaycanı bu haqq işindən çəkindirə bilməz. Türkiyə sona qədər Azərbaycanın yanındadır.

# "Əsgərə Məktub Online" layihəsi fəaliyyət göstərir

*<u>Döyüşlərdə iştirak edən hərbi qulluqçuların döyüş əzminin daha da artırılması məqsədilə Müdafiə Nazirliyi Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən təbliğat və təşviqat tədbirləri davam etdirilir.</u>*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bu tədbirlər çərçivəsində "Əsgərə məktub" layihəsi də böyük coşqu ilə davam edir. Ordumuza dəstək olan vətəndaşlarımızın döyüşlərdə iştirak edən şəxsi heyətə ünvanladıqları məktublar hərbi qulluqçularımızda xoş təəssürat yaradır və onlar tərəfindən sevinclə qarşılanır. Hərbi qulluqçular da öz növbəsində xalq-ordu birliyinin təntənəsi olan ordumuza dəstək kampaniyasında iştirak edən hər kəsə öz təşəkkürlərini çatdırır.




Böyük ruh yüksəkliyinə səbəb olan məktublar təbliğat və təşviqat qrupu tərəfindən sutkanın 24 saatı ərzində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşən hərbi qulluqçularımıza çatdırılır.

Bundan əlavə, "Əsgərə Məktub Online" layihəsi də fəaliyyət göstərir. Layihəyə qoşulmaq üçün **www.veten-ugrunda.az** saytına daxil olaraq online məktub yaza bilərsiniz.

# BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının baş müşaviri Ermənistanın Gəncəyə raket hücumu barədə məlumatlandırılıb

Oktyabrın 19-da Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqazdakı ofisinin insan hüquqları üzrə baş müşaviri Vladimir Şkolnikovla videokonfrans formatında görüşü olub. Görüşdə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Bakı ofisinin İnsan Hüquqları üzrə Milli Müşaviri Kamran Bağırov da iştirak edib.

Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Ombudsman təsisatı və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı arasında prioritet əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Müvəkkil BMT rəsmisini 2020-ci ilin sentyabrın sonlarından etibarən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yeni ərazilərini işğal etmək məqsədilə hücuma keçdiyini, beynəlxalq humanitar hüququn normalarını kobud şəkildə pozaraq Azərbaycanın həm cəbhə xətti boyunca, həm də təmas xəttindən uzaqda yerləşən rayonlarında yaşayan mülki şəxsləri və obyektləri ağır artilleriya atəşinə məruz qoyduğunu, nəticədə çoxsaylı insan tələfatı və dağıntıların olduğunu diqqətə çatdırıb.

S.Əliyeva Ermənistanın Azərbaycana qarşı son hərbi təcavüzü nəticəsində beynəlxalq hüququn norma və prinsiplərinin, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulduğunu, beynəlxalq səviyyədə qadağan edilmiş silahlardan mülki şəxslərin və obyektlərin atəşə tutulduğunu, nəticədə dinc sakinlər, xüsusilə uşaqlar, qadınlar, ahılları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlər arasında çoxlu sayda tələfat və yaralanma hallarının baş verdiyini, mülki evlərin, tarixi və mədəni abidələrin, inzibati binaların, təhsil müəssisələrinin, uşaq bağçalarının, xəstəxanaların və sosial obyektlərin dağıdıldığını diqqətə çatdırıb.

Görüşdə Müvəkkil erməni təcavüzünün, pozulmuş insan hüquq və azadlıqlarının bütün dünyaya çatdırılması məqsədilə müxtəlif bəyanatlar verdiyini, təcavüzdən zərər görmüş yerlərdə faktaraşdırıcı missiyalar həyata keçirdiyini və toplanmış dəlillər əsasında hazırladığı geniş hesabatların müvafiq beynəlxalq təşkilatlara, o cümlədən BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına göndərildiyini qeyd edib.

# Sosial şəbəkə istifadəçilərini yalnız Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə çağırırıq

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, son günlər bəzi sosial şəbəkə istifadəçiləri əməliyyatların aparıldığı istiqamət və cari vəziyyətlə bağlı müxtəlif şəxsi fikirlər paylaşaraq hadisələri qabaqlamağa çalışırlar.

Bildiririk ki, bu cür addımlar həm məxfilik rejiminin pozulmasına, həm də hərbi qulluqçularımızın həyatının təhlükəyə atılmasına səbəb ola bilər.

Bütün bunları nəzərə alaraq, sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini rəsmi surətdə öz təsdiqini tapmamış məlumatları yaymamağa və yalnız Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə çağırırıq.

| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98;<br>Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Lalə HÜSEYNOVA | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.<br>Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz. | Lisenziya № 361<br>Sifariş № 639<br>Nüsxə 4000 |